## "Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti"nin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ QƏRAR

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 4 iyun 2010-cu il
№ 104

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 4 iyun tarixli, 104 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi

### M Ü D D Ə T İ

1. Təhsilin pillələri və səviyyələri üzrə təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır və müvafiq dövlət təhsil standartlarına uyğun olaraq müxtəlif təhsil pillələri və səviyyələri üzrə təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddətlərini müəyyən edir.

#### 1.1. Məktəbəqədər təhsil üzrə

Bu pillədə təhsil müddəti 3 ildir. 5 yaşdan 6 yaşa qədər olan müddət məktəbə hazırlıq mərhələsi hesab olunur.

#### 1.2. Ümumi təhsil üzrə

İbtidai təhsil — 4 il (I-IV siniflər)
Ümumi orta təhsil — 5 il (V-IX siniflər)
Tam orta təhsil — 2 il (X-XI siniflər)

#### 1.3. İlk peşə-ixtisas təhsili üzrə

Tam orta təhsil bazasından qəbul olunmuş qruplarda təhsil müddəti 1 ildir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş və peşə ilə yanaşı, tam orta təhsilalanlar üçün təşkil edilən qruplarda təhsil müddəti 3 ildir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş və yalnız peşə təhsili alanlar üçün təşkil edilən qruplarda təhsil müddəti peşənin mürəkkəbliyindən asılı olaraq 1-2 ildir.

Ümumi orta, tam orta təhsil səviyyəsini bitirib, istehsalatda və ya digər iş sahələrində işəgötürənlərin və fərdlərin sifarişləri əsasında müəyyən peşə üzrə bacarıqlar qazanmış şəxslər üçün həmin və ya digər peşənin öyrədilməsi, ixtisasının artırılması və yenidən hazırlanması üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.

### 1.4. Orta ixtisas təhsili üzrə

Orta ixtisas təhsili proqramlarının əyani forma üzrə normativ təhsil müddəti ümumi orta təhsil bazasından qəbul olunanlar üçün 3-4 il, tam orta təhsil bazasından qəbul olunanlar üçün isə 2-3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyən edilir.

### 1.5. Ali təhsil üzrə

Ali təhsil pilləsinin bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyən edilir.

Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 1-2 ildir. Qiyabi forma üzrə təhsil müddəti altı ay artıqdır. Bu müddət ixtisaslaşmaların təhsil proqramları ilə müəyyən edilir.

Tibb təhsili üzrə əsas təhsil proqramlarının təhsil müddəti 5-6 il, rezidenturada isə 2-6 ildir. Bu müddət ayrı-ayrı ixtisasların (ixtisaslaşmaların) təhsil proqramları ilə müəyyən edilir.

Doktoranturada təhsil müddəti 3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır.